**“TƏSDİQ EDİRƏM”**
**Azərbaycan Dövlət İqtisad**
**Universitetinin rektoru, professor**

**_______________ Ə.C. Muradov**

# UNEC PROFESSOR-MÜƏLLİM HEYƏTİ ÜZVLƏRİNƏ “TƏDQİQATÇI” STATUSUNUN VERİLMƏSİ HAQQINDA

## Q A Y D A L A R

***UNEC Elmi Şurasının 10 sentyabr 2024-cü il***
***tarixli 197 saylı qərarı ilə təsdiq edilmişdir.***

## UNEC PROFESSOR-MÜƏLLİM HEYƏTİ ÜZVLƏRİNƏ "TƏDQİQATÇI" STATUSUNUN VERİLMƏSİ HAQQINDA

## QAYDALAR

### 1. Ümumi müddəalar

1.1. "UNEC professor-müəllim heyəti üzvlərinə "tədqiqatçı" statusunun verilməsi haqqında Qaydalar" (bundan sonra Qaydalar) UNEC-də elmi-tədqiqatların keyfiyyətinin artırılması və eləcə də professor-müəllim heyətinin elmi-tədqiqat fəaliyyətini daha da stimullaşdırmaq məqsədi ilə hazırlanmışdır.

1.2. Bu Qaydalar, əsas iş yeri UNEC olan və 0,5 ştat, 0,75 ştat və 1 ştat müəllim, baş müəllim, dosent və professor vəzifələrini tutan əməkdaşlara şamil edilir;

1.3. UNEC-in professor-müəllim heyəti üzvlərinə "tədqiqatçı" statusu verildikdən sonra onların mövcud akademik vəzifələrinin qarşısına "tədqiqatçı" sözü əlavə edilir ("tədqiqatçı-müəllim", "tədqiqatçı-baş müəllim", "tədqiqatçı-dosent", "tədqiqatçı-professor").

1.4. Professor-müəllim heyəti üzvlərinə "tədqiqatçı" statusunun verilməsi, bərpa edilməsi və ləğv edilməsi haqqında qərarlar ***"Scopus"*** akademik platformasındakı müvafiq istinad göstəriciləri üzrə müvafiq komissiyanın təqdimatı əsasında UNEC Rektoru tərəfindən verilir.

1.5. Bu Qaydalar yalnız UNEC-də (Bakı şəhəri) tətbiq edilir. UNEC-in filiallarında da filial direktorlarının müraciəti əsasında, Rektorun əmri ilə tətbiq edilə bilər.

### 2. "Tədqiqatçı" statusunun verilməsi üzrə başlıca tələblər

2.1. ***"Scopus"*** akademik platformasında istinad göstəriciləri aşağıdakı tələblərin hər üçünə cavab verən professor-müəllim heyəti üzvlərinə "tədqiqatçı" statusu verilir:

- Son 5 il üçün "ümumi istinadlarının sayı"nın ("Citations") ən azı 100 olması;
- Son 5 il üçün "Hirş indeksi"nin ("h-index") ən azı 8 olması;
- Son 5 il ***üçün 100 ümumi istinad sayını və 8 Hirş indeksini formalaşdıran*** hər bir əsərinə verilən istinadların ümumi sayında "özünəistinadlar"ın ("self-citations") sayının 2-dən çox olmaması.

2.2. “Tədqiqatçı” statusunun verilməsi ilə bağlı müvafiq qərarın qəbul edilməsində Qaydaların 2.1-ci bəndində göstərilən tələblərin hər üçü eyni dərəcədə əhəmiyyət daşıyır və bu tələblərdən hər hansı birinə cavab verməyən əməkdaşlara “tədqiqatçı” statusu verilmir.

2.3. “Tədqiqatçı” statusu 2 tədris ili müddəti üçün verilir. Bu müddət başa çatdıqdan sonra Qaydaların 2.1. bəndində göstərilən tələblərə uyğun olmayanların bu statusu qüvvədən düşür.

2.4. “Tədqiqatçı” statusunu əldə etmək istəyənlər müvafiq ərizə ilə Rektora müraciət edirlər. İddiaçılar ərizələrinə ***“Scopus”*** akademik platformasında müraciət tarixinə aid olan profillərinin surətini (“screenshot” yolu ilə) əlavə edirlər.

2.5. “Tədqiqatçı” statusunun əldə edilməsi ilə bağlı müraciətlər hər tədris ilinin 30 iyun tarixinə qədər qəbul edilir və “tədqiqatçı” statusunun verilməsi ilə bağlı müvafiq qərar növbəti tədris ilinin 1 sentyabr tarixindən qüvvəyə minir.

**3. Müraciətlərə baxılması qaydası**

3.1. “Tədqiqatçı” statusunu əldə etmək məqsədilə müraciət edənlərin ərizələrinə baxmaq üçün Rektor tərəfindən 3 nəfərdən ibarət müvafiq Komissiya yaradılır.

3.2. Komissiya təqdim edilən ərizələrdə göstərilən məlumatları ***“Scopus”*** akademik platformasındakı məlumatlar əsasında ekspertiza edir və ekspertizanın nəticələrinə uyğun olaraq müvafiq şəxsə “tədqiqatçı” statusunun verilib-verilməməsi ilə bağlı Rektora müvafiq qaydada təqdimat verir.

3.3. Komissiya ekspertiza zamanı müraciət edən əməkdaşın ***“Scopus”*** akademik platformasındakı bütün məlumatlarının (xüsusilə elmi məqalələri ilə bağlı təqdim edilən) həqiqiliyini bir-bir yoxlayır.

**4. “Tədqiqatçı” statusuna görə ödənilən əlavə əmək haqqı**

4.1. “Tədqiqatçı” statusunu əldə edənlərin aylıq vəzifə maaşları (differensial əlavə əmək haqqı nəzərə alınmamaqla) bu statusun qüvvədə olduğu müddət ərzində 50% həcmində artırılır.

4.2. “Tədqiqatçı” statusuna görə verilən əlavə əmək haqqı hər tədris ili üzrə 1 sentyabr tarixindən 31 avqust tarixinə qədər aylıq əsasda ödənilir.

**5. “Tədqiqatçı” statusunun ləğv edilməsi halları**

5.1. “Tədqiqatçı-müəllim”, “tədqiqatçı-baş müəllim”, “tədqiqatçı-dosent” və “tədqiqatçı-professor” statusları aşağıdakı hallarda ləğv edilə bilər:

- Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2014-cü il 6 noyabr tarixli, 1/2 nömrəli Qərarı ilə təsdiq edilmiş "Müəllimlərin etik davranış qaydaları"nın tələblərini pozduqda;
- Elmi-tədqiqat fəaliyyətində plagiat hallarına yol verdikdə;
- əməkdaşın ***"Scopus"*** akademik platformasındakı profilində göstərilən məlumatlara nəticələri öz xeyrinə dəyişdirməyə yönəlmiş hər hansı bir müdaxilə etdiyi aşkarlandıqda;
- müraciətlərə baxılması zamanı ekspertizanın nəticələri əsasında müəyyən edilmiş texniki səhv baş verdiyi halda.

5.2. Qaydaların 5.1-ci bəndində göstərilən ilk üç halla əlaqədar olaraq statusundan məhrum edilmiş əməkdaşlar 5 il müddətinə müvafiq statusun alınması üçün müraciət edə bilməzlər.

## 6. Müraciət ərizələrində təqdim edilən məlumatların yalnışlığına görə məsuliyyət

6.1. İddiaçılar, "tədqiqatçı" statusunun əldə edilməsi ilə bağlı müraciət ərizələrində göstərilən məlumatların yanlışlığına görə "UNEC-də işçilərin universitetdaxili intizam Qaydaları"nın 9.4/ç, n, 9.5/c və 9.6/ğ bəndlərinə uyğun olaraq müvafiq qaydada məsuliyyət daşıyırlar.

## 7. Yekun müddəalar

Bu Qaydalar, UNEC Elmi Şurasının qərarı ilə qüvvəyə minir və qüvvədən düşür. Qaydalara əlavə və dəyişikliklər UNEC Elmi Şurasının qərarı ilə həyata keçirilir.